# Milli identiklik və mənəvi dəyərlər müstəvisində Azərbaycan əlyazma sənəti

**Səbinə Nemətzadə**
Azərbaycan Milli Elmlər Akademiyası, Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu
"Şərq-Qərb" şöbəsinin aparıcı elmi işçisi, ilahiyyat elmləri üzrə fəlsəfə doktoru, dosent
**E-mail:** nematzadesabina@yahoo.com

**Səbirə Nemətzadə**
Bakı Dövlət Universiteti Sosial elmlər və psixologiya fakültəsinin
Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**E-mail:** sabiranematzade@yahoo.com

Hər bir xalqın mədəniyyətini formalaşdıran, inkişafına təkan verən, daha doğrusu onun mənəviyyatını, zövqünü, ictimai və fəlsəfi düşüncəsini, etik və estetik təsəvvürlərini əks etdirən, milli identiktliyini, tarixi yaddaşını özündə daşıyan sənətlər, adət və ənənələr vardır. Azərbaycan xalqı, Türk və İslam dünyası öz mənəvi intellektual və yaradıcı imkanları baxımından tarixdə dərin iz qoya bilmişdir. Zəngin bədii irsi olan xalqımız başqa xalqlar kimi öz inkişafının ilkin dövrlərindən başlayaraq, yaşadığı evlərə, istifadə etdiyi əşya və alətlərə gözəl naxışlar verməyə çalışıb. Estetik mahiyyət daşıyan belə naxışlar zaman keçdikcə öz forma və məzmununu dəyişmiş, yeni bədii və texniki ifadə vasitələri hesabına daha da təkmilləşərək süjetli lövhələr formasında təzahür tapmışdır.

Dövrümüzə qədər gəlib çatan Azərbaycan dekorativ-tətbiqi sənət nümünələri milli incəsənətimizi öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Onların bir çox nümunəsi müxtəlif ölkələrin muzeylərində özünə layiqli yer tutur. Xalçalar, bədii parçalar, zərgərlik məmulatı, metaldan, ağacdan, çinidən və saxsıdan hazırlanmış müxtəlif əşyalar, habelə divar rəsmləri geniş xalq kütlələrinin həyatına nüfuz etmiş, insanların məişətini zənginləşdirmiş və gözəlləşdirmişdir. Milli xüsusiyyətlərimizin daşıyıcısı olan məişət əşyaları, sənət nümunələri eyni zamanda Azərbaycan xalqının qədim tarixi keçmişinə dəlalələt edən maddi-mədəni irsimizdir.

Qeyd etmək lazımdır ki, mədəniyyətimizin formalaşmasına və inkişafına müxtəlif mərhələlərdə həm zərdüştlik, yəhudi, xristian, həm də İslam mədəniyyətlərinin təsiri var. Tarixən ölkəmizdə dini-mədəni fərqliliklərə münasibətdə yüksək dözümlülük, tolerantlıq mühitinin yaranması heç də təsadüfi deyil. Bu, xeyli dərəcədə Azərbaycanın karvan yollarının üstündə yerləşərək, "Böyük İpək Yolu"nun mühüm mərkəzlərindən biri olması ilə əlaqədardır.



Cəli Təliq Bəsmələ

Deməli, ölkəmiz təkcə fərqli mədəni-dini xüsusiyyətlərin yox, həm də müxtəlif siyasi baxışların, iqtisadi münasibətlərin, dövlətçilik formalarının təsirini öz üzərində hiss etmişdir. Lakin bu təsir Azərbaycanın öz dəsti-xətti ilə seçilməsinə, özünəməxsus zəngin mənəvi irs yaratmasına mane olmayıb. Bu mənəvi irsin çox mühüm tərkib hissələrindən biri, şübhəsiz, müxtəlif dini-fəlsəfi ideyalarla zəngin olan əlyazmalarıdır. Əlyazmaları bəşəriyyətin ən dəyərli "susaraq danışan" xəzinəsi adlandırmaq mümkündür. Varisi olduğumuz nadir irs çoxşaxəlidir, çoxaspektlidir. Bu şaxələrdən, aspektlərdən biri də əlyazmalarımızın bədii tərtibat xüsusiyyətləridir.

Əlyazmalar bizim zəngin, çoxəsrlik mədəniyyətimizin misilsiz nümunələridir. Lakin müxtəlif siyasi, sosial-iqtisadi və mədəni amillərin təsiri altında həmin nümunələrin bir qismi indiki dövrə qədər gəlib çatmamış, itib-batmışdır. Böyük bir hissəsi isə dünya kitabxana və muzeylərində, şəxsi kolleksiyalarda yer alır.

Mükəmməl ləvazimatdan istifadə edilərək ərsəyə gələn Azərbaycan əlyazma kitablarındakı miniatürlər, təzhib və bəzəmələr, ornamentlər və nəhayətində Şərq üslubunda cildləmələr əsərlərin nəfisliyini daha da artırırdı. Bu gün həmin əsərlər nəinki mövzu baxımından tədqiq olunur, eyni zamanda muzey eksponatı, həmçinin bəşəriyyətin maddi-mədəni irsi olaraq dəyərləndirilir. Cahangir Qəhramanov Əlyazmalar Fondunu (indiki M.Füzuli adına Əlyazmalar İnstitutu) Azərbaycanın kitab mədəniyyəti tarixinin zəngin müzeyi olduğunu vurğulayaraq qeyd etmişdir: "Orta əsr kitab rəssamlığı, kitab mədəniyyəti ilə bağ-

lı tətbiqi-dekorativ yaradıcılıq növləri əvəzsiz bədii sərvət kimi qiymətləndirilməlidir.

Əlyazmada olan miniatürlər və illüstrasiyalar onu göstərir ki, azərbaycanlı ustalar bədii tərtibatlı əlyazmaları hazırlayarkən Yaxın və Orta Şərq miniatüristlərinin nailiyyətlərindən istifadə etməklə Şərq xalqlarının incəsənətinin inkişafına yaradıcı surətdə təkan vermiş, müstəqil ənənələr yaratmış, beləliklə də onlar dünya bədii mədəniyyət xəzinəsində şərəfli yer tutmuşlar.

Miniatür sənəti, Azərbaycan əlyazma kitabının bədii tərtibatının öyrənilməsi, kalliqraflar, nəqqaşlar, ornamentalistlər və cildçilərin yaradıcılığının tədqiqi təxirəsalınmaz vəzifədir, Azərbaycan kitab mədəniyyəti tarixi də elmi və aktual əhəmiyyət daşımaqla öz həllini gözləyir ".

Azərbaycan ərazisində yazılan, istər müəllifin özü tərəfindən, istərsə də müstənsixlər tərəfindən üzü köçürülən əlyazma əsərlərində miniatürlərlə yanaşı, təzhibə də tez-tez rast gəlinir. Bu da onu göstərir ki, Azərbaycanda bu sənət geniş yayılmış, Azərbaycan əlyazma tarixində mühüm rol oynamışdır.

Əlyazmaların bədii tərtibat xüsusiyyətlərinin araşdırılması nəinki tarixşünaslıq, mənbəşünaslıq, sənətşünaslıq, həmçinin dinin tarixi və fəlsəfəsi müstəvisində tədqiqi Azərbaycan əlyazmaçılığının İslam tarixində və müsəlman fəlsəfi fikrinin formalaşmasındakı rolunu təsbit edəcək.

Azərbaycan ərazisində əsrlər boyu əlyazma sənətləri geniş yayılmış, milli dəyərlərlə yanaşı dini müstəvidə də formalaşmışdır. İslam mədəniyyətində yer alan Azərbaycan əlyazma sənətləri məhz müqəddəs Quranın, dini mətnlərin, hilyələrin, qitələrin, dini lövhələrin bədii tərtibatı zəminində inkişaf edib, dünya mədəniyyətinə şah əsərlər qazandırıblar. Böyük zaman ərzində bir yandan Quranın imla qaydalarına riayət edərək düzgün oxunması üçün əmək sərf edilmiş, digər tərəfdən əlyazma sənətkarları – xəttatlar xəttin gözəlləşməsi üçün hünər göstərmiş, İslam kalliqrafiyasının misilsiz nümunələrini, İslam sənətinin incilərini miras qoymuşlar.

Akademik Vasim Məmmədəliyev "Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi" kitabındakı ön sözdə vurğulayıb ki, Qurani-Kərim iki milyarda yaxın insanın etiqad etdiyi İslam dininin müqəddəs kitabı, ərəb ədəbi dilinin ən möhtəşəm abidəsi və səmavi kitabların sonuncusudur. İlahi gözəlliyə malik bu əsər Ulu Tanrının Öz möcüzəsi kimi milyonlarla insanın qəlbinə hakim kəsilmiş, onların canına, qanına hopmuş, beyninə nüfuz etmişdir.

Qeyd etmək lazımdır ki, ötən əsrin 60-cı illərində əlyazmaların bədii tərtibat məsələləri Adil Qazıyev tərəfindən sənətşünaslıq nöqteyi-nəzərindən tədqiq olunub. O, hətta Sadiq bəy Əfşarın "Qanunü-s-süvər" əsərini farscadan tərcümə etmiş, əsərə ön söz yazmış, risalənin icmalını vermişdir. Daha sonrakı dövrdə Kərim Kərimov tərəfindən Azərbaycan miniatür sənəti və miniatür məktəbi dərindən öyrənilib. Bu gün də bir çox tədqiqatlar elə həmin ənənə ilə öz davamını tapıb. Çox zaman əsas tədqiqat obyektini də miniatür sənəti təşkil edir. Müasir dövrün alimlərindən



**Quran-Kərimin əlyazma nüsxəsindən**
**Sərlövhə/dibacə təzhibi**
**(AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, M-277)**

sənətşünaslıq doktoru Cəmilə Həsənzadənin və sənətşünaslıq üzrə fəlsəfə doktoru Ağasəlim Əfəndiyevin əsərləri ciddi nailiyyət kimi dəyərləndirilə bilər; onlardan biri Azərbaycan miniatür sənətinin Təbriz məktəbi nümunələrinin, digəri isə miniatür boyakarlığımızda hərbi janrın tədqiqinə həsr olunub. Adı çəkilən əsərlərdə əlyazmaçılıqda yeri olan miniatürlər sırf sənətşünaslıq və sənət tarixi kontekstində araşdırılmışdır.

İslam kalliqrafiyasına Azərbaycan xalqı da böyük töhfələr verib. Nəstəliq xətti, həmçinin tövqi və təliq xüsusiyyətləri daşıyan divani Azərbaycan ərazisində ortaya çıxıb.

**Təliq** – Təbriz xəttatlıq sənətində XIV əsrin ikinci yarısında artıq tam formalaşan süls və nəsxdən sonra ən çox istifadə olunan yazı növüdür. Doğru adı nəstəliqdir. Türkiyədə təliq deyə adlandırılan bu yazı birləşməyən hərflərin bir-birinə bağlandığı tövqi və riqa yazılarından doğmuş girift və çox çətin oxunan yazıdır. Təliq nəstəliq yazısının ilk şəklidir. Qeyd etmək lazımdır ki, təliq yazısı heç də asan yazı forması deyil, burada hərəkə və təzyini işarələr yoxdur. Lakin yazını yazarkən kiçik bir qüsur olarsa, dərhal gözə çarpacaq.

**Nəstəliq** – nəsx və təliq xətləri əsasında ortaya çıxmışdır. Ona görə də bu xətt əvvəllər nəsx-təliq, sonralar iki söz – nəsx və təliq birləşməsində, "xa" hərfi düşmüş və bu xətt nəstəliq adlandırılıb.

Darabadi qeyd edir ki, nəstəliq xəttini tərtib edən Xacə Mir Əli adlı bir şəxs olmuşdur. Ədəbiyyatda bunu təsdiq edən materiallar sırasında bir şeir də vardır ki, farscadan tərcüməsində belə səslənir: nəstəliq xəttinin istər narın, istərsə də iri yazısını icad edən Xacə Mir Əlidir. Bu adamın vətəni Təbrizin pak torpağı olduğuna görə qələmindən şəkər tökülür.

Təzkirələrdə Mir Əlinin nəstəliq xəttinin icadı ilə bağlı bir rəvayət də nəql edilir. Bir gecə Mir Əli "Ya Rəbb! Mənə bir xətt ehsan eylə ki, öncə qələmlə rəsm edilməmiş olsun" – deyə Alla-

ha yalvarır. O gecə aləmi-mənada Həzrət Əlini görür və ayaqlarına düşərək muradını söyləyir. Hz. Əli "Ey mərdi-xüda, qaz dedikləri quşa bax və onun cizgilərindən, gərdənindən başlayaraq, mərkəzə doğru tədricən çuxurlanan şəkillərdən ilham alıb bir gözəl yazı çıxart" deyə işarət eyləyir. Məhz bu mənəvi işarətdən sonra onun nəstəliq xəttini icad etdiyi rəvayət olunur.

İslamın doğuşuyla, ilkin çağlarıyla başlayan təzhib sənəti, bütün İslam dövlətlərində xətt sənəti ilə birlikdə tətbiq edilmiş və təkmilləşmişdir. Təzhib sənəti ilk inkişafına Təbrizdən start götürüb, daha sonra Herat, Bağdad, Mosul, Konya, Karaman, Amasya, Harput, Sivasda və s. davam etdirilib. Ümumi bir üslub xətti olmağıyla yanaşı, bölgələrə görə fərqliliklər də görünür. Təzhib sənəti müsəlman Şərqində ilk dəfə Qurani-Kərimin təzhiblənməsiylə başlamış, Quranı ilk təzhibləden də Hz. Əli olmuşdur.

Orta əsr müsəlman Şərqində saray kitabxanaları üçün, mötəbər şəxslərə hədiyyə olaraq və ya xüsusi sifarişlə hazırlanmış əlyazma kitabların təzhiblənməsinə xüsusi diqqət yetirilib. Nəfis bəzəmə və təzhiblər əsasən müshəflərdə, mürəqqələrdə, hüsnü-xətt lövhələrində, hilyələrdə, bərat və fərmanlarda yer almışdır. İslamın ilk üç əsrində Quran əlyazma nüsxələrində surə sonlarına həndəsi şəkildə bəzəmələr, nəbati motivlər, ornamentlər işlənib. Quran və elmi kitabların hər növündə bəzəmə nümunələrinə rast gəlinir. Əlyazma əsərlərində ən zəngin təzhib, kitabların zəhriyyə hissəsində, mətnlərin kənar başlıqlarında, surə əvvəlində və mövzu hissələrinin aralarında, kitabın son səhifəsində xatimə və ya kətəbə hissəsində yerləşir. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutunun fondunda yer alan Xan qızı Xurşidbanu Natəvanın XVII-XIX əsr əlyazma nümunələrinə xas təzyin edilmiş Quran əlyazma nüsxəsi saxlanılır ki, hər bir səhifəsi nəfis təzhiblidir, bütün İslam dünyasının əsas əqidəsinə - tövhid anlayışına bağlı ornamentlərlə bəzədilmişdir.

Azərbaycan əlyazmaçılığı Səfəvilər dönəmində 1580-90-cı illərdə təzhib sənətində yeni bir üsluba imza atıb. Böyük boyda təzhibli əlyazmaların işlənməsinə başlanılmışdır. Bu üslubun davamı olan nümunələri bu gün Azərbaycan Milli Tarix muzeyində qorunur və nümayiş etdirilir. Onlardan biri İran şahzadəsi Abbas Mirzə Qacarın, digəri isə Səfəvilər sülaləsindən olan şahzadə Heydər Mirzənin qızı Nurcahan bəyimin zəngin naxışlı, nəfis bəzədilmiş təzhibli, qeyri-adi ölçülü, şahzadələrə məxsus kəbin sənədləridir. Azərbaycan əlyazma və təzhib sənətinin, Azərbaycan-İslam incəsənətinin bu dəyərli nümunələri eyni zamanda onu göstərir ki, İslam mədəniyyətinin, Şərq incəsənətinin, xəttatlıqla yanaşı ən önəmli sahələrindən biri olan təzhib sənəti Azərbaycanda geniş vüsət almışdır. Hər iki əsərdə əsasən naturalist motivlərə üstünlük verilib. Təzhib tərzi də ənənəvi üslubla, texniki xüsusiyyətlərini saxlayaraq icra edilmişdir.

Ən çox istifadə olunan, eyni zamanda Azərbaycan əlyazmalarında rastlanan təzhib növləri - zəmini boyalı klassik, Zərəfşan, Zərəndərzər, Halkari, Ciftətəhrir təzhib növləridir ki, bunların da hər birinin tədqiqi, öyrənilməsi tarixşünaslığımız, milli, dini, maddi və mənəvi dəyərlərimiz, eyni zamanda mədəniyyət siyasətimiz üçün atılacaq ən doğru addımdır. Müxtəlif mövzuları əhatələyən Azərbaycan miniatür rəsmlərində incəlik, gözəllik, dəyanət, sədaqət, mətinlik, müdriklik simvolu olan qadın obrazlarını incələyərkən Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərində yer alan, bir-birindən fərqli qadın xarakterlərini görürük. "Xosrov və Şirin"də Azərbaycan hökmdarı Məhin Banu və onun qardaşı qızı – sevgisinə, milli, dini adət-ənənələrinə sadiq Şirin, "İsgəndərnamə"də yüksək təfəkkür sahibi, Bərdə hökmdarı Nüşabə başda olmaqla bir çox qadın obrazları dəfələrlə miniatür rəsmlərin ana mövzusunu təşkil etmişdir.

Dahi azərbaycanlının "İsgəndərnamə" sində Bərdə hökmdarı Nüşabə obrazı xüsusi diqqət çəkir. Şair Nüşabə ilə Bərdəyə gələn Makedoniyalı İsgəndərin görüşü səhnəsində Azərbaycan qadınının yüksək təfəkkür sahibi olduğunu, müdrikliyini ortaya qoyur.

Nizaminin "Xosrov və Şirin" əsərinə də çox sayda miniatürlər çəkilmişdir. Xosrov və Şirinin cövkən oynaması, ova çıxması kimi səhnələri əks etdirən miniatür rəsmlər bizə azərbaycançılıq fenomenlərini tarixi müstəvidə görməyə imkan verir.

Azərbaycan əlyamalarında istər kalliqrafik nümunələr olan kalliqram və müsənna yazılarda, istərsə də təzhibdə, cildçilikdə, təzhibdə, miniatürdə yer alan mövzu və motivlər olduqca geniş spektrə malikdir. Bu motivlər içərisində geniş yer alanlara sərv ağacını, butanı, narı, əjdaha və simurqu misal çəkmək olar.

Həyat ağacı qədim dövrlərdən bəri bir çox mədəniyyətlərdə ölümsüzlük ifadə edən bir motivdir. İslam sənətində yer tapan həyat ağacına fərqli anlamlar verilib. Quranda Həzrət Məhəmmədin Merac əsnasında ən üst qatda yer alan Sidrətül-Müntəhaya, yəni məxluqat aləminin son nöqtəsinə qədər yüksəldiyi bildirilir. Peyğəmbərin çatdığı Sidrətül-Müntəhadan sonra Cənnətül-məva yer alır, bu müqəddəs ağacda insan bilgisi sona çatır.

Fərqlı anlayışlar ifadə edən sərv ağacının bir nərdivan vəzifəsi gördüyünə, ruhun Allah qatına yüksəlişini təmsil etdiyinə inanılır. Eyni zamanda, xalq arasında incə və uzun boylu sevgiliyə bənzədilir. Dik duruşu ilə vəhdəti, yəni birliyi təmsil edir. Allah kəlməsinin ilk hərfi olan "Əlif"ə də bənzədilən sərv ağacının rüzgarda əsdikcə "Hu" səsi çıxartdığı söylənir. Bundan əlavə, təsəvvüfdə səbrın simgəsidir.

Nar, əbədi həyat, qüdrət simvolu və cənnət meyvəsidir. Saysız tumları bolluğu, bərəkəti ifadə etmək üçün də istifadə edilən bir motivdir. Xurma ağacının yer və göy üzü arasında bir əlaqə nöqtəsi olduğu düşünülür. Cənnəti, Həcci və Kəbəni xatırlatdığı üçün də rəsm edilmişdir.

Bestiar mövzulardan əjdaha motivi təzhibdə geniş işlənərək, türk-islam fəlsəfi fikir tarixində mühüm bir yerə malikdir. Türk-islam əlyazmalarında bütün

dövrlər üzrə çox rastlanan əjdaha qoruyuculuq, ahəng, hərəkət, göy üzü və kainat kimi təsəvvür edilə bilən müxtəlif simvolik mənaları daşıyır.

Simurq motivi Azərbaycan, eləcə də digər türkdilli xalqların əlyazma təzhiblərində yer alan bestiar motivlərdəndir.

Simurq sözünün farscadan tərcüməsi "otuz quş"dur. Onun otuz ayrı quşun xüsusiyyətlərini daşıdığına inanırlar. Simurq dövlət quşu olaraq da tanınır. Gövdəsi olduqca iri, rəngli, ehtişamlı, quyruqlu, güclü bir quşdur. Hətta əjdaha ilə mübarizə edə biləcək qədər çox gücü var. İnsan kimi danışan, son dərəcə rəngli və bəzəkli bir quş olan simurqun oddan və günəşdən yaradılışına inanılır. Simurq tovuz quşu, qrif, aslan və itin ortaq xüsusiyyətlərinə sahib kimi də səciyyələndirilir. Simurq bir çox mifoloji hekayə və nağılda qarşımıza çıxan, qartal başlı və caynaqlı, geniş ağızlı, quyruğu uzun qıvrımlı, xallı gövdəli, saqqallı və pipikli olaraq ifadələndirilən ikonoqrafik bir motivdir.

Azərbaycan mədəniyyətində Simurq (Zümrüdü-Ənqa) müdriklik, ədalət, birlik, xeyirxahlıqla yanaşı xoşbəxtlik simvoludur.

Türk bəzəmə sənətlərində sevilərək istifadə edilən nar motivi bütövlükdə dünyanı, içindəki dənələr insanları, aralarındakı pərdələr dünyadakı insan qruplarının din, irq ayrı-seçkiliyinə baxmayaraq, bir bütövü meydana gətirdiklərini rəmzləşdirir.

Qeyd etmək lazımdır ki, Azərbaycan mifologiyasından qaynaqlanan, təsviri sənətimizin bir çox sahələrində öz əksini tapan nar motivi bu gün də Azərbaycançılıq simvollarından biri kimi öz aktuallığını saxlamışdır.

XIV və XV əsrlərdə Şərqi Anadolu, Azərbaycan, İran və İraqda hökm sürən Qaraqoyunlular və Ağqoyunlular dövründə inkişaf etdirilən və Türkmən üslubu deyilən yeni bir tərz yaranıb. Qaraqoyunlu miniatürlərində fiqurlar iri başlı və bəstəboyludur. Təbiət, bitkilərin və əsasən qayalıq bir üfüq xəttinin yer aldığı sadə bir mənzərə halında və açıq rənglərdən istifadə ilə işlənmişdir. Bu üslubun günümüzə çatan nümunələri Pir Budaqın himayəsindəki seçmə sənətkarlar tərəfindən Şiraz və Bağdadda hazırlanıb. Nizaminin "Xəmsə"sinin müxtəlif nüsxələri, Fərideddin Əttarın "Mantıku't-tayr"ı bu dövrün üslubunu əks etdirən əsərlərdəndir. Ağqoyunlu miniatürləri Sultan Xəlil ilə qardaşı Sultan Yaqubun himayədarlığı altında işlənib ərsəyə gəlmişdir.



Isgəndərin Nüşabə ilə onun sarayında görüşməsi, XVI əsr, Uolters Sənət Muzeyi

İslam miniatür sənətinin ən mühüm inkişaf mərhələlərindən biri Səfəvilər dövründə reallaşıb. Rəsm mövzusunda tolerant anlayışları ilə miniatür sənətinin inkişafına meydan açan Səfəvi hökmdarları sənətkarların müxtəlif sənət sahələrində əsərlər ortaya qoymalarına dəstək olmuş, onlar üçün şərait yaratmışlar. Səfəvi miniatür məktəbi Mürkmən və Herat üslubunun təsiri altında formalaşıb. Xüsusilə Şah I Təhmasibin səltənəti illərində Təbriz saray nəqqaşxanəsi Behzadın idarəsində dəyərli əsərlərin yarandığı ən məhsuldar bir dövrü yaşayırdı. Bu dövrün Sultan Məhəmməd, Ağa Mirək, Şeyxzadə kimi məşhur sənətkarları vardı. Həmin məktəbin bizə miras qoyduğu Sədi Şirazinin "Külliyyat"ı, Firdovsinin "Şahnamə"si, Nizaminin "Xəmsə"sinin möhtəşəm tərtibatlı, zərif təzyinatlı əlyazmaları xeyli dəyərlidir.

Bildiyimiz kimi, Səfəfilər dövründə naxış sənətinin, miniatürün mərkəzi Xorasandan Təbrizə köçürülür. Herat da hələ bir müddət ayrı bir mərkəz olaraq davam edir. Bu dövrdə Behzad da yeni cığırın önündə idi. 1510-cu ildə Səfəvi hökmdarı Şah İsmayıl (1502-1524) Heratı aldıqdan sonra Behzadı Təbrizə gətirtmişdi.

Səfəvilər İsmayılın qardaşı yeddinci imam Musa Kazımdan qəldikləri iddia edilən, adını da bu şəcərədən olan Şeyx Səfi əd-Dindən (1252-1334) alan Azərbaycan sülaləsidir. Səfəvilərin mərkəzləri əvvəllər Ərdəbil idi. Şah İsmayılın oğlu Şah Təhmasib sonralar Təbrizi bir sənət mərkəzinə çevirdi. O, əlyazma sənətləri ilə yaxından maraqlanır, məharətli xəttat kimi gözəl nəstəliq xətti ilə yazırdı. Özünü miniatür sənətində də sınamışdı. Mənbələrdə Nəqqaş Sultan Məhəmmədin tələbəsi olduğu qeyd edilir. Təbrizdəki emalatxanasında Behzad, Sultan Məhəmməd, Mir Müsəvvir, Mir Seyyid Əli, Ağa Mirək, Şeyxzadə, Dust Məhəmməd və digər nəqqaşların çalışdığı məlumdur.

Behzad kompozisiyalarının və rənglərinin ahəngi ilə seçilən ustad bir sənətkar idi. Teymurilər sülaləsində Sultan Hüseyin Baykara dövründən miniatür sənətinə başlamışdı. Sonra Şah İsmayıl tərəfindən Təbrizdə saray rəssamı təyin olundu. Elə həmin vaxtdan Təbrizdə yeni bir miniatür məktəbi yarandı. Behzad türkcə şeir kitabları da yazırdı. O dövrün ədəbi əsərləri arasında

“Cami silsilət ət-tüllab”, “Əxlaqi mühsinə”, “Ənvari-Süheyli” kimi əsərlərin Behzada aidliyi göstərilir. Behzad Şahnamə, Nizami Xəmsəsi, Zəfərnamə kimi əsərlərə çox sayda miniatür rəsmlər çəkərək dünya mədəniyyətinə əsrarəngiz töhfələr vermişdir.

Behzad miniatür sənəti tarixində məşhur tələbələr yetişdirmişdi. Xorasanlı Şeyxzadə, Sultaniyyəli Mir Müsəvvir, İsfahanlı Ağa Mirək onlar arasındadır. Bu rəssamlar eyni zamanda mahir xətt ustaları idilər. Behzadın tələbələrindən Mövlana Müzəffər Əli məşhur Çinlisütun sarayının bəzəmələrini işləmişdir.

Behzadın yaradıcılığında dedikcə az rast gəlinən qadın obrazları dövrünün şöhrətli miniatür rəssamlarından olan Ağa Mirəkin əsərlərində xüsusi yer tutur. Ernst Kühnel qeyd edir ki, haqqında çox məlumat olmayan Ağa Mirəkin Qərbi Təbrizdə yerləşməzdən əvvəl Buxarada və ya Heratda çalışıb-çalışmadığı bilinmir. Bu da bizə onun məhz təbrizli olması fikrini irəli sürməyə dair əsas verir.

Şah Təhmasibin sarayında sayılıb-seçilən şəxsiyyətlərdən sayılan Sultan Məhəmmədin Səfəvi hökmdarının kitabxanası üçün hazırlanan möhtəşəm nüsxələrdə əməyi vardır. Bunlardan ikisi böyük bir tale əsəri olaraq günümüzə qədər gəlmişdir. Biri 1539-43-cü illərdə hazırlanmış, Britaniya Muzeyində saxlanılan Nizami nüsxəsi, digəri də 256 miniatürlə bəzənmiş və Parisdə Baron Edmond de Rotschildin kolleksiyasında yer alan, 1537-ci il tarixli misilsiz Firdovsi nüsxəsidir. Beləliklə, deyə bilərik ki, Azərbaycan mədəniyyəti bir çox sahələrdə olduğu kimi, əlyazma sənətlərində də öz imzasını qoymuş, əsrlər boyu identikliyini qoruyub saxlaya bilmişdir.

Bütün dünyada qədim əlyazmalar müzey eksponatları səviyyəsində dəyərləndirilir, qorunur və təbliğ olunur. Muzey-institutlarda, fondlarda, dünya kitabxanalarında nəinki qədim əlyazmalar, eyni zamanda müxtəlif illüstrasiyalı nadir kitablar, nəfis miniatür əsərləri də mühüm əhəmiyyət kəsb edir və onların gələcək nəsillərə ötürülməsi üçün əsaslı işlər görülür və görülməkdədir. Çünki, hər bir əsər öz zamanının məhsuludur. Hər bir xalqa məxsus yazılı abidə, sənət əsərləri həmin xalqın sosial və mədəni səviyyəsinin, dövrünün, mühitinin meyarıdır. Yazılı abidələrimizin hər birinin qorunması, tədqiqi, gələcək nəslə çatdırılması çox vacib və əhəmiyyətlidir. Azərbaycanın maddi-mədəni sərvəti olan yazılı abidələrinin - əlyazma əsərlərinin tədqiqi və təbliği elə Azərbaycan mədəniyyətinin təbliği deməkdir. ❖

**Ədəbiyyat:**

1. Adilov Məmməd. Azərbaycan paleoqrafiyası. Bakı: “Elm”, 2010.
2. Çoruhlu Yaşar. Kozmolojik, mitolojik, astrolojik dini ve edebi tasavvurlara göre Türk sanatında hayvan sembolizmi – I. İstanbul: “Seyran Kitap”, 1995.
3. Darabadi Q.A. Kalliqrafiya. Bakı: “ADU nəşriyyatı”, 1953.
4. Kühnel Ernst. Doğu İslam memleketlerinde minyatür. Çevirenler: Suut Kemal Yetkin, Melahat Özgü. Ankara: Ankara Üniversitesi İlahiyat Fakültesi yayınları, Türk Tarih Kurumu Basımevi, 1952.
5. Mahir Fatma Banu. Minyatür Sanatı. İslam sanatları tarihi. Eskişehir: Anadolu Üniversitesi, 2013.
6. Məmmədəliyev Vasim. Ön söz. Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi. Yenidən işlənmiş XVI nəşr. Azərbaycan dilinə tərcümə edənlər: Ziya Bünyadov, Vasim Məmmədəliyev. Bakı: “Nurlan”, 2015.
7. Nemətzadə Səbinə. Azərbaycan mədəniyyətində əks olunmuş azərbaycançılıq fenomeni. // IV fəsil. “Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik”. (Kollektiv monoqrafiya) Bakı: “Elm və Təhsil”, 2019.
8. Nemətzadə Səbinə. Əlyazmaların bədii tərtibat xüsusiyyətlərində dini-fəlsəfi aspektlər. Bakı: “Elm və Təhsil”, 2017.
9. Özkeçeci İlhan, Özkeçeci Şule Bilge. Türk sanatında tezhip. İstanbul: “Yazıgen Yayıncılık”, 2014.
10. Serin Muhittin. Hat sanatı ve meşhur hattatlar. İstanbul: “Kubbealtı” neşriyatı, 2003.
11. Serin Muhittin. Hat Sanatı/İslam SanatlarıTarihi. Eskişehir: “Anadolu Universitesi Yayınları”, 2013, s.81.

**Резюме**

Сабина Нейматзаде
Сабира Нейматзаде

АЗЕРБАЙДЖАНСКОЕ РУКОПИСНОЕ ИСКУССТВО В КОНТЕКСТЕ НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ И ДУХОВНЫХ ЦЕННОСТЕЙ

Каждое искусство отражает в себе нравы, социальные и философские мышления, этические и эстетические идеи, а главное, ядро, основу культуру нации. На основе рукописного искусства тюркским народам, принявшим ислам, удалось сформировать тюрко-исламский синтез, придерживаясь мусульманской идеологии и раскрыв свои культурные элементы, не противоречащие основным принципам новой религии. На протяжении всей истории азербайджанские мастера - каллиграфы, миниатюристы, музеххибы, переплетчики и так д. в своих работах - в рукописных произведениях смогли сохранить национальную идентичность, а также внесли весомый вклад в мировую культуру.

**Ключевые слова:** Азербайджан, рукопись, искусство, культура, национальная идентичность, духовные ценности

**Summary**

Sabina Nematzade
Sabira Nematzade

AZERBAIJANI MANUSCRIPT ART IN THE CONTEXT OF NATIONAL IDENTITY AND SPIRITUAL VALUES

Each art reflects in itself the mores, social and philosophical thinking, ethical and aesthetic ideas, and most importantly, the core, the basis of the culture of the nation. On the basis of manuscript art, the Turkic peoples who converted to Islam managed to form a Turkic-Islamic synthesis, adhering to Muslim ideology and revealing their cultural elements, which did not contradict the basic principles of the new religion. Throughout history, Azerbaijani masters - calligraphers, miniaturists, muzekhhibs, bookbinders and so on in their works – in manuscripts managed to preserve their national identity, and also made a weightless contribution to world culture.

**Key words:** Azerbaijan, manuscript, art, culture, nationalidentity, spiritualvalues.